**UOT 327**

# POSTKOLONİALİZM VƏ AVROPA MƏRKƏZÇİLİYİ

**Nərgiz NAĞIYEVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 10 mart 2024; çapa qəbul edilmişdir: 15 may 2024; online-da çap edilmişdir: 24 may 2024.
Received: 10th of March, 2024; accepted: 15th of May, 2024; published online: 24th of May, 2024.

**Açar sözlər:** *post-kolonializm, Avropa, imperializm, müstəmləkə, Qərb, müstəmləkəçilik, orientalizm*

## Giriş

Tarixin bir çox dövrlərində dövlətlər arasında yüksək mövqe, alilik uğrunda mübarizələrin və maraqların toqquşması baş vermişdir. Bu siyasi və iqtisadi mübarizə və münaqişələr təbii olaraq son nəticədə özü ilə çoxlu dağıntılar və qlobal ziyanlar da gətirdi. Tarixdə ən çox dağıntılara səbəb olan bu qəbildən olan hadisələrdən biri də, XVI əsrdən etibarən yayılmaqda olan müstəmləkəçilik siyasi hadisəsidir. Dünyanın bir çox ölkələri, bütün sonrakı dövrlərdə, xüsusən Asiya və Afrika ölkələri Avropa dövlətlərinin müstəmləkəçilik fəaliyyətlərindən və imperializm təsirlərindən öz payını almışdır. Avropa müstəmləkəçiliyi bütün dünyaya yayıldı, xüsusən də XIX əsrdə beynəlxalq siyasətə misilsiz təsir göstərdi. Maarifçilik təfəkkürü və elmi müasirlik əsasında Avropa müstəmləkəçiləri özlərinin iqtisadi, texnoloji, hərbi nailiyyətlərindən və resurslarından istifadə edə bildilər, beləliklə, Avropa mədəniyyətini, dinini, tarixini, fəlsəfəsini, siyasətini və əhali bölgülərini zorla Avropa hüdudlarından kənara köçürdülər. Bu dinamika Avropa təsirinin üstünlüyünə, nəzarətinə və imperializmin yayılmasına gətirib çıxardı ki, bu da öz növbəsində imperiya binaları üzərində qurulmuş imperiyanın genişlənməsini asanlaşdırdı. Avropa mədəniyyətinin bu kütləvi diasporası müstəmləkə hakimiyyətinə tabe olan yerli mədəniyyətlərə dərhal təsir etdi. Müstəmləkəçiliyin bilavasitə təsiri, tarixin sahibsizliyi və yerli mədəniyyətlərə etinasızlıq kimi faktorlar avrosentrik yanaşmanı başa düşməkdə postkolonializm üçün əsas olan amillərdəndir.

## 1. Müstəmləkəçilik və post-müstəmləkəçilik

XVI-XVII əsrlərdə müstəmləkə siyasətinin aparıcı aktorları Portuqaliya və İspaniya idi. XVIII əsrdə isə İngiltərə və Fransa arasında rəqabət müşahidə olunur [15, s. 57-58]. İngiltərə əldə etdiyi rifah və iqtisadi inkişafla müstəmləkə yarışında liderlik etdi. Hindistandakı digər müstəmləkəçi dövlətləri zərərsizləşdirdi və monopoliyaya çevirdi. Beləliklə, İngiltərə XIX əsrdə dünyanın ən böyük ərazisinə malik müstəmləkəçi dövlətə çevrildi [2, s. 394-397]. Birinci Dünya müharibəsinə qədər dünya torpaqlarının 20%-ini və əhalinin 25%-ini nəzarət altına aldı [22, s. 231].

I Dünya müharibəsindən sonra məğlub tərəf olan Avstriya-Macarıstan və Osmanlı imperiyaları dağıldı. Almaniya xaricdəki müstəmləkələrini itirdi. Nəticə olaraq, Almaniya tez bir zamanda özünə gəldi və II Dünya müharibəsinin əsas aktoruna çevrildi. II Dünya müharibəsi illərində Avropanın müstəmləkəçi dövlətləri Almaniyanın müstəmləkəsinə

* *siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent, Bakı Dövlət Universiteti*
*e-mail:* nargiz_nagiyeva@mail.ru

çevrilmək təhlükəsi ilə üz-üzə qaldılar. Onlar müstəmləkəçilikdən azad olmaqlarının əvəzini öz müstəmləkələrindən imtina etməklə ödədilər. Amerika Birləşmiş Ştatları (ABŞ) ilə imperialist rəqabətə girən Yaponiya da müstəmləkələrindən məhrum oldu [22]. Müstəmləkələrin müstəqillik qazanması (dekolonizasiya) ilə Sovet İttifaqı və ABŞ imperialist nəzarəti ələ keçirtdi. Soyuq müharibənin sona çatması ilə beynəlxalq sistemdə hegemonluğa malik olan ABŞ yeni imperiya gücünə çevrildi. Bütün bu məlumatlara əsaslanaraq demək olar ki, imperiya güc mübarizəsi, xüsusən də Qərb dövlətləri arasında müasir dünya tarixinin aparıcı siyasi xüsusiyyətlərindən birini təşkil edir.

Güclü Qərb dövlətləri tərəfindən həyata keçirilən ideologiya olan imperializm kapitalizmlə sıx bağlıdır və zəif ölkələri və cəmiyyətləri istismara və ya müstəmləkələşdirməyə əsaslanır [17]. İstismarçılıq fəaliyyətləri sayəsində Şərqin sərvətlərini Qərbə daşıyaraq rifaha və zənginliyə nail olan imperialist ölkələr II Dünya müharibəsindən sonra istismar etdikləri ölkələrin müstəqilliyini qəbul etmək məcburiyyətində qaldılar. Lakin bu, keçmiş müstəmləkə ölkələrinin imperiya idarəçiliyindən və nəzarətindən tamamilə azad olması demək deyil. Çünki müstəmləkə idarələri altında açıq şəkildə reallaşan imperiya təsirinin və nəzarətinin bu gün də müxtəlif formalarda, birbaşa və ya dolayı müdaxilələrlə davam etdiyi düşünülür.

Bu nöqtədə postkolonializm dünyada davam edən istismar xarakterli hökmranlığın forma və yollarını açmağa çalışan bir yanaşma və ya nəzəriyyə kimi önə çıxır. Ona görə də, həm müstəmləkəçilik zamanı, həm də ondan sonrakı siyasi və iqtisadi hadisələr postkolonializmin maraq dairəsindədir.

Dünyanın bir çox ölkələri, xüsusən də Afrika və Asiyada Avropa dövlətlərinin müstəmləkəçilik fəaliyyətlərində və imperializmin təsirlərində öz payı var.

II Dünya müharibəsindən sonra sürətlənən dekolonizasiya prosesi ilə kolonializm rəsmi olaraq tarix səhnəsindən çəkilsə də bir çox mübahisələrə səbəb olmuşdur. Bir çox keçmiş müstəmləkələrin müstəqilləşdiyi bu prosesdən sonra gündəmə gələn mübahisələrdən biri siyasi müstəmləkəçiliyə həqiqətən son verilib-verilmədiyi olmuşdur. Siyasi müstəqilliyin əldə edilməsinin kolonializmin sonunu elan etmək üçün yanlış bir göstərici olduğu tezisi 1960-cı illərdə Kvame Nkrumahın neokolonializm nəzəriyyəsində öz ifadəsini tapmış, kolonializmin iqtisadi bir asılılıq çərçivəsində yeni bir formada varlığını davam etdirdiyi qeyd edilmişdir. Qeyri-rəsmi olaraq kolonializmin davam etdiyinə dair narahatçılıq onun tək ərazi, iqtisadi kolonializmlə məhdudlaşmayıb, mədəni sahədə də öz canlılığını qoruduğuna və ya Aşis Nandinin deyimiylə beyinləri koloniyalaşdırmağa davam etməyə (18) dair mübahisələr yeni bir nəzəriyyəni-postkolonializmi bərabərində gətirmişdir. Bu səbəbdən Ofeliya Şuttenin ifadə etdiyi kimi kolonializmin tarix səhnəsindən çəkilməmək israrı, postkolonial nəzəriyyəni hərəkətə keçirən faktorlardan biri olmuşdur [20, s. 165-166].

Postkolonial nəzəriyyə, tarixi və cari kontekstlərdə bilik istehsalı ilə əlaqəsi çərçivəsində müstəmləkə genişlənməsinin davamlılığını gündəmə gətirməyi qarşısına məqsəd qoydu. Edvard Səid “Orientalizm” (Şərqşünaslıq) əsərində əsasını qoyduğu nəzəriyyəyə uyğun olaraq XVIII əsrin sonlarında yönünü Şərq ölkələrinə çevirən Avropa müstəmləkəçilərinin müstəmləkə ekspansiyalarının bu genişlənmələri əsaslandıran biliklər ilə müşayiət olunduğunu qeyd etmişdir. Mişel Fukonun bilik-güc əlaqəsi tezisindən çıxış edən E.Səid eyni metodologiya ilə müstəmləkəçilik və şərqşünaslıq arasında olan məqama diqqət çəkdi [7, s.12-13]. Bu baxımdan, şərqşünaslıq diskursunda əks xüsusiyyətlərlə təchiz edilərək yaranan Qərb və Şərq kateqoriyaları və aralarındakı ikili ziddiyyətlər Şərq kimi homogenləşən coğrafiyada müstəmləkə genişlənməsini zəruri edirdi.

Avropa müstəmləkəçiləri öz müstəmləkəçilik siyasətlərini əsaslandırmaq və ona haqq qazandırmaq üçün əslində deyirdilər ki, onu “insanlaşdırdılar”, “mədəniləşdirdilər”, “inkişaf etdirdilər” və “müasirləşdirdilər”. Avropa müstəmləkəçiləri öz müstəmləkələrini

assimilyasiya etdik, əhilləşdirdik, xaric etdik və məhv etdik, demirlər. Ona görə də, müasir olmaq həm də müstəmləkəçi olmaq deməkdir və bu baxımdan müasirləşmə tarixinin imperializm və müstəmləkəçilik tarixi ilə eyni olmasında təəccüblü heç nə yoxdur. Arif Dirlikin də qeyd etdiyi kimi, modernizm teleologiyaya deyil, digərinə və başqasına təsir edən qüvvəyə əsaslanır [12, s. 25].

XIX əsrin sonu – XX əsrin əvvəllərindən etibarən Asiya və Afrika qitələrinin müstəmləkəçiliyi Qərbin müəyyən etdiyi beynəlxalq hüquq normaları və modernləşmə ideologiyaları oxu üzərində inkişaf etdi. Bu proses əslində modernləşməyə başlayan, yeni dünyanın mərkəzinə çevrilən Avropa ilə başladı və "öz sənaye gücü, dəmir yolları, pulemyotlar, döyüş gəmiləri, yeni bürokratik və siyasi təşkilatlanma formaları, tərəqqi ideologiyaları sayəsində onlar bir məhdud çıxışı olan və ya bu güc resurslarına çıxışı olmayanlara qarşı fərqli mövqe" "üstünlük" və beynəlxalq strukturun məzmununu müəyyən etmişdir [5, s. 228].

Bu baxımdan, Samir Aminin (2001) vurğuladığı kimi, qlobal sistem əvvəldən imperialist istismarın üzərində qurulmuşdur. Bu sistem daxilində qeyri-qərb dövlətləri qərb dövlətləri ilə müqayisədə ikinci dərəcəli status qazanarkən, bu bərabərsizlik "bərabər suverenlik prinsipi" və onun liberal ideologiyası çərçivəsində gizlədilib.

Eyni münasibət keçmiş müstəmləkələrin öz müstəmləkə ağalarından müstəqillik qazandıqları və buna görə də artıq müstəmləkə deyil, "Üçüncü dünya" adlandırıldığı bugünkü "müstəmləkədən sonrakı" dünyaya da aiddir. Postkolonial sözü, dövrləşdirmənin modernist təsvirində olduğu kimi, müstəmləkəçiliyin artıq mövcud olmadığı və müstəmləkəçilikdən sonra keçdiyimiz bir dövrü təsvir etmir və təsvir edə bilməz. Hər şeydən əvvəl, müstəqillik uğrunda aparılan müharibələrin nailiyyətlərinə dair fikirləri məxfi saxlamaq şərti ilə "Subaltern Studies" (Subaltern tədqiqatlar) aparmış Aşis Nendi (1983) və Partha Çatterji (1993) kimi tədqiqatçıların qeyd etdiyi kimi, müstəmləkəçiliyə qarşı aparılan müharibələrin və mübarizlərin dövlət millətçiliyi kimi müstəmləkəçilikdən "törəmə" olan mətn yazısı vasitəsilə həyata keçirilir. Qarşı tərəf müstəmləkəçilik dəyərlərini mənimsədi və buna görə də modernizmin suveren subyekti tərəfindən qəbul edilən qeydiyyatdan keçmiş, səlahiyyətli müstəqillik var. Bu, suveren mövzuya heç də yad olmayan tanış mətndir. Millətçilik daxili fərqlər arasında fərq qoymayan birlik-bütövlük ideologiyası olduğundan, yeni millət (dövlət) daxilindəki fərqləri assimilyasiya yolu ilə görməzdən gəlməyə və məhvə qədər aparan bu müstəqilliyin istismarçı təcrübələr silsiləsi haqqında kifayət qədər məlumatımız var [22].

## 2. Avropamərkəzçilik və onun tənqidi

Avropamərkəzçiliyi uzun müddətdən bəri dünyada hakim ideologiyalardan biri olaraq qalmaqdadır. Avropadan kənardakı xalqların ənənəviliyi, Avropanın isə müasirliyi təmsil etməsi iddiaları, həmçinin Qərbin irəliləyiş və ya yüksəliş inancı baş verən iki dünya müharibəsi ilə sarsıldı. Həmçinin 1945-ci ildən sonrakı dövrdə yaşanan hadisələr, ölkələrin müstəmləkəçilikdən qurtuluşuna paralel olaraq dünyanın bir sıra bölgələrində həyata keçirilən tədqiqatlar müasir elmin əsaslandığı paradiqmanın keçərsizliyini sübuta yetirdi. Belə ki, fərqli coğrafiyalarda, ölkələrdə aparılan tədqiqatlar zamanı hər sosial-mədəni strukturun özünəməxsusluğu müasir elmin ümumbəşərilik iddialarının həqiqəti əks etdirmədiyini göstərdi.

"Avropamərkəzçilik Avropanın mədəni-coğrafi məkanında baş verdiyinə inanılan hadisələrin dünya tarixində mühüm əhəmiyyət kəsb etdiyinə dair üstüörtülü və ya başqa bir inancdır" [2, s. 5].

Müasir Qərb subyektinin formalaşmasında İntibah və Maariflənmə dövrlərinə verilən əhəmiyyəti nəzərə alaraq "avrosentrizm"in tənqidinin fəlsəfi ölçüsünün bu kontekstdə yer alan tədqiqatçıların fikirləri ilə istisna olunmadığı görünəcək. Belə ki, tənqidin təcrübi

simasını göstərmək üçün bu ölçü xüsusilə vurğulanmalıdır. Beynəlxalq münasibətlər elmi yarandığı gündən Qərbin problemləri, konsepsiyaları, dili, gündəliyi və siyasətləri ətrafında inkişaf etmişdir. Bu vəziyyət beynəlxalq münasibətlərin ilk növbədə Qərb ziyalıları və institutları tərəfindən müəyyən edildiyi və qeyri-qərb təcrübələrinin, perspektivlərinin və şərhlərinin istisna edildiyi bir elm sahəsinə çevrilməsinə səbəb olmuşdur [11]. Buna görə də, beynəlxalq münasibətlərin ümumiyyətlə Qərb intizamı olduğuna dair inam geniş yayılmışdır [9].

Əsas beynəlxalq münasibətlər nəzəriyyələri də bu perspektivi əks etdirir və Qərb sivilizasiyasına beynəlxalq sahənin vahid, ən yüksək və ideal istinad obyekti kimi yanaşır. Bu diskursda Qərb dünyası ağıl, elm, tərəqqi və universallıq kimi dəyərlərlə tərənnüm edilir, obyektivlik iddiası ilə alternativ, tənqidi şərhlər bloklanır [6, s.40]. Bu sahədə dominant anlayış Qərb süzgəcindən keçə bilməyən hər hansı nəzəri yanaşmanın bu elmdə özünə yer tapmasını demək olar ki, qeyri-mümkün edir.

Bu sistemli istisnaya baxmayaraq, beynəlxalq münasibətlər nəzəriyyəsində Qərb-mərkəzçiliyini problemləşdirən, tənqid edən, rədd edən və deşifrə etməyə çalışan bir sıra nəzəriyyələrdən danışmaq olar. Marksizm, xüsusən də Dünya-Sistem nəzəriyyələri, müstəmləkəçilik və imperializm kimi anlayışlarla Qərb hökmranlığına toxunaraq beynəlxalq münasibətləri qlobal miqyasda araşdırmağa çalışmışdır. Qərbin özünəməxsusluğunu rədd edərək qlobal miqyaslı qarşılıqlı əlaqənin beynəlxalq sosial inkişafa təsirini araşdıraraq, Qərbdən kənar cəmiyyətlərin mahiyyətini açmağa çalışmışdır.

Müxtəlif qnoseoloji və ontoloji fərziyyələrə malik olan və müxtəlif nəzəri ənənələrdən irəli gələn bütün bu nəzəri yanaşmaların ortaq nöqtəsi ondan ibarətdir ki, onların heç biri beynəlxalq münasibətlərdə Avropa (Qərb) mərkəzçiliyə qalib gələcək vahid nəzəri yanaşma inkişaf etdirə bilməmişdir. Aşağıdakı sətirlərdə irəli sürüldüyü kimi, müvafiq nəzəri tədqiqatlar Qərb-mərkəzçiliyi problem yaratsa da, Qərb mərkəzli şərhlər beynəlxalq münasibətlərdə öz üstünlüyünü qoruyub saxlamış və Avropa (Qərb) mərkəzli olmayan vahid beynəlxalq münasibətlər nəzəriyyəsi hazırlanmamışdır. Üstəlik, 1970-ci illərdən başlayaraq formalaşan qloballaşma prosesi beynəlxalq sferanın cəmiyyətlərə təsirinin artmasına gətirib çıxararaq, yeni universallıq formasını yaradıb. Qloballaşma prosesinə xas olan iqtisadi, siyasi və intellektual transformasiyalar beynəlxalq səviyyədə müəyyən edilmiş siyasətlərin və qəbul edilmiş dəyərlərin əhəmiyyətini daha da artırmışdır. Bu universallıq baxışı altında Avropa (Qərb) mərkəzçiliyi də yeni forma almışdır və buna görə də beynəlxalq münasibətlər nəzəriyyəsində Avropa (Qərb) mərkəzçiliyi müzakirə edən nəzəri yanaşmalar üçün öz təhlillərini yenidən nəzərdən keçirmək zərurəti yaranmışdır.

İ.Vallerstein [21, s. 6-7] bildirirdi ki, II Dünya müharibəsindən sonra Asiya, Afrika və Latın Amerikasında yeni ölkələrin meydana çıxması ilə Qərbin “şərqşünaslıq” tədqiqatları dünyanın qalan hissəsini dərk etmək üçün yetərli deyildi. Qərbdə ortaya çıxan nəzəriyyələr inkişaf etməkdə olan dünya iqtisadiyyatını və onun yaratdığı sosial təsirləri anlamaq üçün kifayət etmədiyini bildirdi. Mütəfəkkirin fikrincə, Qərb-mərkəzçilik tarixşünaslıq, şərqşünaslıq, universallıq iddiaları, mütərəqqilik ideyası və Qərb sivilizasiyasının müddəaları vasitəsilə özünü yaradır və təkrar istehsal edir. Bu ünsürlər vasitəsilə Qərbin inkişafı və onun dünyanın mərkəzinə çevrilməsi təsdiqlənir, bununla da dünyanın qalan hissəsində bu prosesin törətdiyi dağıntılar göz ardı edilir. Buna görə də, Vallerşteyn BMN-nin diqqətini Qərbdən bütövlükdə dünyaya köçürməyə cəhd etdi və Qərbin yüksəlişini vahid dünya sistemi çərçivəsində başa düşməyə imkan verdi.

Nəticə etibarilə, Vallerstayna görə qərbyönümlü irəliləyiş fikri keçərsizliyini ortaya qoydu və modernizmin fundamental arqumentlərinə duyulan inancın əsassız olduğu üzə çıxdı. Gəlinən son nöqtə Avropa mərkəzçi sosial elmlərin iddia etdiyi qərb sivilizasiyasının

nümunəvi model olması inancını sarsıtdı və hazırkı dövr üçün təkmil model axtarışlarına yol açdı.

1990-cı illərdən postkolonializm yanaşmaları dominant beynəlxalq münasibətlər nəzəriyyələrinin Qərb mərkəzli fərziyyələrini problemləşdirərək şübhə altına aldı. Xüsusilə, Soyuq müharibə bitdikdən sonra Asiya, Afrika və Yaxın Şərq kimi bir çox müxtəlif coğrafiyalarda qeyri-Qərb beynəlxalq münasibətlər nəzəriyyəsi yaratmaq cəhdlərindən danışmaq olar [9].

Bundan əlavə, yuxarıda qeyd edildiyi kimi, Dünya-sistem nəzəriyyəsi Qərbdə formalaşmış intellektual strukturlardan və konseptual çərçivələrdən kənara çıxmaq üçün Marksın kapital yığılması konsepsiyasını qlobal miqyasda təhlil edir. Bu nöqtədə, Anievas və Nişancıoğlunun [1, s. 49] qeyd etdiyi kimi, Dünya-sistem nəzəriyyəsi kapitalizmin mənşəyi ilə bağlı marksizmin avrosentrik fərziyyələrini təkrarlayır. Qərb-mərkəzçiliyin tarixi prioritet və daxili təhlil kimi məqamları olduğunu bildirən mütəfəkkirlər, həmçinin İ.Vallersteinin kapitalizmi Avropa sərhədləri daxilində ortaya çıxan muxtar və bənzərsiz bir proses kimi qəbul etdiyini ifadə etmişlər [1, s. 33-42]. Beləliklə, Dünya-sistem nəzəriyyəsi Qərbi əsas istinad obyekti kimi götürdü və Qərbin tarixinə daxil etməklə qeyri-Qərb tarixini izah etdi. Bu perspektiv Qərbi qlobal sistemin fəal subyektinə çevirsə də, inkişaf etməmiş əksəriyyətin tarixini və subyektliyini passivləşdirir.

Bu məqamda mərkəzdən kənar ölkələrin qlobal subyektliliyini ortaya qoymağa çalışan post-müstəmləkəçilik yanaşmalarından bəhs etmək faydalı olardı. Postkolonial mütəfəkkirlərə görə sosial elmlər, xüsusən də BM sistemi Qərbin düşüncə strukturlarına və təcrübələrinə əsaslanan bir sahədir və buna görə də, dünya siyasətində qeyri-Qərb dövlətlərinin təcrübələrinə məhəl qoymur [11, s.6]. Bu nöqtədən başlayaraq, post-müstəmləkəçilik yanaşmaları beynəlxalq münasibətlərdə qurulmuş anlayış və kateqoriyaları şübhə altına alır və onları inkişaf etməmiş xalqların gözü ilə yenidən nəzərdən keçirir. Bu baxımdan, post-müstəmləkəçilik yanaşmalarına görə, "Üçüncü dünya" dövlətləri Qərbin maddi və ideoloji hökmranlığı altında fəaliyyət göstərən passiv aktorlar deyil. Əksinə, müqavimət göstərmək və hərəkət etmək qabiliyyətinə malik dövlətlər olaraq Qərbin müstəmləkə hökmranlığına qarşı çıxırlar [11, s.1-32].

Beləliklə, post-müstəmləkəçilik yanaşmaları "Üçüncü dünya" dövlətlərinin perspektivini, konseptual çərçivəsini və subyektliyini üzə çıxararaq, hakim diskursa və güc münasibətlərinə qarşı fikirləri inkişaf etdirməklə Qərb-mərkəzçiliyi dəf etməyə çalışıblar. Çünki onların fikrincə, beynəlxalq münasibətlər sahəsində hökm sürən bərabərsizliklər Qərbdən kənarda hazırlanan tədqiqatların bu elm daxilində lazımi səviyyədə təmsil olunmamasına səbəb olur.

Başqa sözlə, post-müstəmləkəçilik beynəlxalq münasibətlər nəzəriyyəsinin əsas nəzəriyyələrini Qərb mərkəzli olmaqda ittiham edir və bunun öhdəsindən gəlmək üçün Qərbdən kənarda olanların aktiv subyektliyini və konseptual çərçivəsini sual altına qoyur. İki postkolonial mütəfəkkir Rutazibva və Şilliam [19, s. 2] beynəlxalq münasibətlər nəzəriyyəsində üstünlük təşkil edən iki fərqli Qərb-mərkəzçiliyi haqqında danışırlar. Bunlardan birincisi "xəyali Qərb-mərkəzçiliyi"dir [19]. Mütəfəkkirlərin fikrincə, bu konsepsiya Avropanın üstünlüyünü və müstəsnalığını fərz etməklə müxtəlif düşüncə tərzinin qarşısının alınması deməkdir. Bu baxımdan, asılılıq nəzəriyyəsi və Dünya-sistem nəzəriyyəsinin Qərbin inkişafının bütün dünyadan təcrid olunmuş şəkildə baş verdiyi iddiasını problemləşdirməsi "xəyali Qərb mərkəzçiliyinə" qarşı bir mövqedir. Avropa (Qərb) mərkəzçiliyin ikinci növü "metodoloji Qərb-mərkəzçilik"dir. Adından da göründüyü kimi, Avropa (Qərb) mərkəzçiliyə bu növü beynəlxalq münasibətlərin öyrənilməsində istifadə olunan metod və anlayışlar toplusu ilə Qərbin üstünlüyünün sistemli şəkildə təkrar istehsalına aiddir. Avropa (Qərb) mərkəzçiliyə bu növü Qərbdən kənarda olanları tədqiq və başa düşmək üçün Qərb mütəfəkkirlərindən, problemlərindən, nəzəriyyə və konsepsiyalarından,

bir sözlə, Qərb təcrübəsindən istinad obyekti kimi istifadə edilməsidir. Post-müstəmləkəçilik isə iddia edir ki, Qərb konseptual çərçivəsi dünyanın qalan hissəsini anlamaq üçün kifayət etmir, çünki onlar universal olmaqdan daha çox Qərb mütəfəkkirlərinin perspektivlərini və problemlərini əks etdirir.

Postkolonialist nəzəriyyələr beynəlxalq siyasətə təsir etməkdə qeyri-Avropa dövlətlərinin rolunu və bu rolu ifadə etmək üçün konseptual çərçivə axtarıblar. Lakin burada vurğulanmalı olan məqam odur ki, post-müstəmləkəçilik yanaşmalarının əsas məqsədi qeyri-Qərb mərkəzli nəzəri çərçivə yaratmaq deyil.

Postkolonial yanaşmalar qeyri-Qərb mərkəzli BM yaratmaq cəhdinin sonda bir beynəlxalq münasibətlər nəzəriyyəsi olacağını və ona görə də "Üçüncü Dünya"nın anlaşılması mümkün olmayacağını ifadə edərək Avropa (Qərb) mərkəzçi olmayan bir beynəlxalq münasibətlər nəzəriyyəsi yaratma cəhdindən imtina etmişdir [16, s. 159].

Buna əsaslanaraq qeyd etmək düzgün olardı ki, post-müstəmləkəçilik yanaşmaları Qərb-mərkəzçiliyə qalib gəlməkdə məhduddur və qeyri-qərb mərkəzli nəzəri çərçivə yaratmır [1, s. 50]. Anievas və Nişancıoğlunun qeyd etdiyi kimi, post-müstəmləkəçilik sosial elmləri avrosentrik ön mühakimələrdən təmizləməyə çalışsa da, sonda qeyri-Avropa kontekstində mövcud və əvvəlcədən fərz edilən kapitalist müasirliyi araşdırır. Bu baxımdan, post-müstəmləkəçilik yanaşmaları Avropa müasirliyinin qeyri-Qərblinin digərinə qarşı və bu digərinin tabeçiliyi ilə necə qurulduğunu vurğulasa da, onlar inanırlar ki, subalternlərin təcrübələri "başqasına" səs verməklə avrosentrik tarixi alt-üst edəcək. Bununla belə, "Üçüncü dünya" subyektliyinin aşkarlanması BM nəzəriyyəsinə hakim olan Qərb-mərkəzçiliyin aradan qaldırılmasına məhdud töhfə verir. Bu baxımdan, post-müstəmləkəçilik yanaşmaları, forması Qərb dövlətləri tərəfindən müəyyən edilən beynəlxalq sistem çərçivəsində fəaliyyət göstərən qeyri-Qərb aktorlarının təsirlərinə dair çox məhdud nəzəri çərçivə təklif edir. Başqa sözlə, beynəlxalq sistemin post-müstəmləkəçilik yanaşmaları kimi təkcə böyük dövlətlərdən ibarət olmadığını, digər kiçik dövlətlərin də sistemin aktiv subyektləri olduğunu üzə çıxarmaq vacibdir. Amma son nəticədə asılı dövlətlərin necə davranacağını iri kapitalist dövlətlərdən ibarət olan beynəlxalq sistem müəyyən edir. Bu baxımdan "Üçüncü dünya" dövlətləri qeyri-məhdud azadlıqlar sahəsində fəaliyyətlərini həyata keçirmirlər. Postmüstəmləkəçilik yanaşmalarının gözdən qaçırdığı odur ki, "Üçüncü Dünya" subyektliyi də beynəlxalq strukturun sərhədləri daxilində baş verir. BM-də Qərb-mərkəzçiliyinə qalib gəlmək üçün beynəlxalq quruluşun maddi əsaslarını və onun tətbiq etdiyi qlobal münasibətlər sisteminin mahiyyətinin açılması həyati əhəmiyyət kəsb edir.

Əslində, asılılıq nəzəriyyəsi kimi postkolonial yanaşmalar da beynəlxalq sferanın heterogenliyini vurğulayaraq, ictimai inkişafın vahid (Qərb) formasının olmadığını bildirirdi. Qərb-mərkəzçiliyin tənqidinə gəlincə, bu yanaşma Qərb tarixinin universal olmadığını üzə çıxararaq, çoxxətli və avrosentrik olmayan diskursu inkişaf etdirməyə çalışmışdır.

Bu baxımdan post-müstəmləkəçilik yanaşmaları Qərbin mərkəz olmasının maddi əsaslarını və təsirlərini görməzlikdən gəlir ki, bu da Qərb-mərkəzçiliyi aradan qaldırmaq üçün vacibdir. Xüsusilə qloballaşan dünya düzənində müxtəlif cəmiyyətlərin inkişaf yolu təsadüfi heterogenliyə əsaslanmır. Postmüstəmləkəçilik nəzəriyyəsi isə digər cəmiyyətlərin fərqli olduğunu, Avropa kapitalizminə, maarifçiliyinə və müasirliyinə söykənərək, bu anlayışların tənqidi oxunda araşdırır [1, s.51]. Lakin qloballaşmanın yaratdığı universallıq və Qərb kapitalizminin genişlənməsinin üzləşdiyi geosiyasi maneələr Qərbdə inkişaf etdirilən strukturların özünəməxsusluq qazanmasına, müxtəlif sosial strukturlara nüfuz etməsinə və milli fərqlər yaratmasına səbəb olur. Yəni ümumbəşəriliyin mövcudluğunu milli fərqlər daxilində də aşkar etmək mümkündür. Postmüstəmləkəçilik yanaşmaları isə sosial fərqlər daxilində universallığı anlamaq üçün məhdud nəzəri çərçivə təklif edir.

Əslində, E.Səid, Bhabha və Spivakın avrosentrizmi tənqid etmələrində ortaq məqam tarixşünaslıqdan zəmin kimi istifadə etmələridir. Postkolonial diskursda tarixşünaslıq təkcə tənqid üçün zəmin deyil, həm də marginallaşmış, hətta silinmiş subalternin bir subyekt kimi yenidən bərqərar olması üçün zəmindir. Subaltern Studies cəmiyyətini bu mənada tarixşünaslıqdan istifadə edən tədqiqatçılar birliyi kimi təsəvvür etmək olar. Cəmiyyətin mühüm simalarından biri olan Dipeş Çakrabarti, subalterni bir subyekt olaraq yenidən yazan qrup üzvlərinin işinin əslində anti-müstəmləkəçilik hərəkatlarına əsaslandırıldığını və Spivakın tənqidi fikirləri ilə postkolonial sərhədlərə girdiyini bildirir [3, s. 4]. Bununla belə, Çakrabarti Arif Dirlikin Subaltern cəmiyyət (icma) ilə bağlı tənqidinə cavab verərkən bildirir ki, icma postkolonial diskursla əlaqəsini daha əvvəlki tarixə Ranajit Guhanın fikirlərinə kimi aparır [10, s.7-8]. Hər iki halda İcmanı postkolonial diskurs çərçivəsində qiymətləndirmək olar.

Eynilə, Samir Amin [7] Qərb-mərkəzçiliyi tənqid etməyin kifayət etmədiyini, Qərb mərkəzli nəzəriyyələrin yalnız köhnənin səhvlərini daşımayan yeni nəzəri çərçivənin meydana çıxması ilə mümkün olduğunu bildirmişdir və bu məqamda o, Dünya sistem nəzəriyyəsinin imkanlarını nümayiş etdirdi. Aminin fikrincə, Qərb-mərkəzçiliyə qalib gəlmək üçün atılacaq ilk addım kapitalizmin Avropada yaranmasını qeyri-bərabər inkişaf konsepsiyası çərçivəsində izah etməkdir. Amin [7, s. 221] bu konsepsiyanın sosial elmlərə xas olan Qərb modernləşməsinin universallıq iddiasını təkzib edərək qeyri-qərb mərkəzli nəzəri konstruksiyaya imkan verəcəyini bildirirdi. Müəllifin fikrincə, atılması lazım olan ikinci addım kapitalizmin dinamikasını izah edərkən dəyər istehsalının qlobal strukturuna diqqət yetirməkdir. Kapitalist iqtisadiyyatının bütün dünyaya yayılması qlobal səviyyədə oxşar (müasir) strukturlar yaratmasının əksinə, izafi dəyər istehsal proseslərinin qlobal strukturu mərkəz və periferiya kimi qütbləşmələrə gətirib çıxarır. Aminin [7, s. 219] fikrincə, bunun üzə çıxarılması həm də sosial elmləri Qərb mərkəzli dünya şərhlərindən xilas edərək yeni nəzəri çərçivənin formalaşmasına imkan verəcək.

**Nəticə**

Müasirlik bütün dünyada avrosentrik ideologiya ilə uzun müddətdir əlbir olmasına və özündə ehtiva edən ziddiyyətlərin uyğunsuzluğuna baxmayaraq, bilik istehsalının və nəzəri çərçivələrin müəyyən edilməsində dominant paradiqma olmaqda davam edir. Müasirliyə xas olan ziddiyyətlərin uyğunsuzluğu marjinallaşma anlayışını qaçılmaz edir. Qərbdə yaşanan tarixi prosesin yeganə doğru və ümumbəşəri olduğunu iddia edən əsaslı yanaşma, müstəmləkəçilik fəaliyyəti ilə paralel olaraq inkişaf etdirilmiş şərqşünaslıq diskursunda da əsaslandırılmışdır. Bu məqalə avrosentrik diskursa əsaslanan post-müstəmləkəçilik nəzəriyyəsinə uyğun olaraq müasirlik və beynəlxalq münasibətlər nəzəri çərçivə və yanaşmanı təhlil etmək məqsədi daşıyır. Bu tədqiqatın digər məqsədi postkolonial nəzəriyyənin üzləşdiyi çətinlikləri və çıxılmaz vəziyyətləri üzə çıxarmaqdır.

## ƏDƏBİYYAT


1. Anievas A., Nişancioglu K. Batı'nın Egemenligi Nasıl Kuruldu? Kapitalizmin Jeopolitik Kökenleri. Ankara, 2020, 384 s.
2. Bhambra K. Moderniteyi Yeniden Düşünmek: Post-kolonyalizm ve Sosyolojik Tahayyul. İstanbul: Bilgi Universitesi Yayınları, 2015, 208 s.
3. Çakrabarti D. Postkolonial Araşdırmalar və İqlim Dəyişikliyi Çağırışı // Yeni Ədəbiyyat Tarixi, c. 43, №1, 2012.
4. Kavas A. Sömurgecilik. Turkiye Diyanet Vakfı İslam Ansiklopedisi. İstanbul: Türkiye Diyanet Vakfı Yayınları, 2009, C. 37, s. 394-397.
5. Kolasi K. Uluslararası Politikanın Yapısal Teorisi. Ankara: Siyasal Kitabevi, 2016, 304 s.

6. Marx K. Marksizm ve Uluslararası Tarihsel Sosyoloji. İçinde // Tarihsel Sosyoloji ve Uluslararası İliskiler. Ankara: Nika, 2017, s. 11-42.
7. Said E.W. Sarkiyatcılık: Batı’nın Sark Anlayışları. Cev. Berna Yıldırım. İstanbul: Metis Yayınları, 2016, 416 s.
8. Acharya A. Buzan B. Why is There no non-Western İnternational Relations Theory? An İntroduction // İnternational Relation of the Asia-Pacific, 7, 2007, pp. 287-312
9. Amin S. Eurocentrism. New York: Monthly Review Press, 2009, 240 pp.
10. Chakrabarty D. Habitations of Modernity: Essay in the wake of Subaltern Studies. Chicago: The University of Chicago Press, 2002, 180 p.
11. Chowdhry G., Nair S. İntroduction: Power in a Postcolonial World: Race, Gender, and Class, International Relations. Londra: Routledge, 2002, 340 p.
12. Dirlik A. Global in the Local. Global, der. R.Wilson-W.Dissanayake. Durham and London: Duke University Press, 1996, pp. 21-45.
13. Dunne T., Kurki M and Smith S. Postcolonialism. İnternational Relations Theories: Discipline and Diversity // New York: Oxford University Press, 2006, pp. 238-256.
14. Wilson R., Dissanayake W. Durham. London: Duke University Press, 1996, s. 21- 45
15. Ferro M. Colonization: A Global History. London: Routledge, 1997, 416 p.
16. Küçük M.N. Postcolonial Approaches in İnternational Relations. İcinde: M. K.Ozekin ve E. Sune (der.), Critical Approaches to İnternational Relations: Philosophical Foundations and Current Debates. Leiden: Brill, 2021, pp. 157-174
17. Lenin V. İ. İmperialism, The Highest Stage of Capitalism: A Popular Outline. Moscow: Progress Publishers, 1966, 157 pp.
18. Nandy A. The İntimate Enemy: Loss and Recovery of Self under Colonialism. Oxford: Oxford University Press, 1983, 160 pp.
19. Rutazibwa O. Shilliam R. Routledge Handbook of Postcolonial Politics. Oxon: Routledge, 2018, 484 p.
20. Schutte O. Postcolonial Feminisms: Genealogies and Recent Directions / The Blackwell Guide to Feminist Philosophy, 2007, pp.165-176.
21. Wallerstein İ. The Tasks of Historical Social Science: An Editorial / *Review*, I, 1977, Research Foundation of State University of New York. pp. 3-7.
22. Young R.J. Postcolonialism: An Historical İntroduction, Oxford and Malden: Blackwell Publishing, 2001, 530 pp.

***Резюме***

***Наргиз Нагиева***

***Постколониализм и евроцентризм***

Во многие периоды истории между государствами происходили конфликты интересов и борьба за высокое положение и превосходство. Эта политическая и экономическая борьба и конфликты, естественно, в конечном итоге принесли с собой большие разрушения и глобальный ущерб. Одним из самых разрушительных событий в истории является политический феномен колониализма, распространяющийся с XVI века. Многие страны мира, особенно страны Азии и Африки, получили свою долю от колониальной деятельности и империалистического влияния европейских стран. Европейский колониализм распространился по всему миру, особенно в XIX веке, оказав беспрецедентное влияние на международную политику. Основываясь на мышлении Просвещения и современной науке, европейские колонизаторы смогли использовать свои экономические, технологические и военные достижения и ресурсы для насильственного переноса европейской культуры, религии, истории, философии, политики и демографического разделения за пределы европейских границ. Эта динамика привела к преобладанию европейского влияния, контроля и распространению империализма, что, в свою очередь, способствовало расширению империи, построенной на имперских зданиях. Эта огромная диаспора европейской культуры оказала непосредственное влияние на местные культуры, находившиеся под колониальным правлением. Такие факторы, как прямое влияние колониализма, лишение истории и пренебрежение местными культурами, являются одними из факторов, которые занимают центральное место в постколониализме в понимании евроцентристского подхода.

Постколониальные теоретики пытались избежать евроцентризма двумя способами и критиковать определенные идеи о мировой истории и существовании других народов в истории. Поначалу они старались избегать разговоров об истории Европы, считая ее центром мировой истории. Более того, европейские державы коллективно обладали силой и знаниями, которые заставляли их думать, что западная культура превосходит другие культуры. Есть некоторые области, где постколониальные теоретики бросают вызов евроцентристскому пониманию истории. Неприятие европейского расизма обсуждалось некоторыми теоретиками, пытавшимися утвердить идею универсального человека, то есть все люди равны. Таким образом, постколониализм принес новый взгляд на мировую историю и частично исправил некоторые «неправильные представления» о европейской перспективе для остального мира.

**Ключевые слова:** *пост-колониализм, Европа, империализм, колония, Запад, колониализм, Ориентализм*

***Summary***

***Nargiz Nagieva***

***Postcolonialism and Eurocentrism***

At many periods in history, conflicts of interest and struggles for high position and supremacy occurred between states. These political and economic struggles and conflicts naturally eventually brought with them great destruction and global damage. One of the most destructive events in history is the political phenomenon of colonialism, which has been spreading since the 16th century. Many countries of the world, especially the countries of Asia and Africa, received their share from the colonial activities and imperialist influence of European countries. European colonialism spread throughout the world, especially in the 19th century, having an unprecedented impact on international politics. Based on Enlightenment thinking and modern science, European colonizers were able to use their economic, technological, and military advances and resources to forcefully transfer European culture, religion, history, philosophy, politics, and demographic divisions beyond European borders. These dynamics led to the predominance of European influence, control and the spread of imperialism, which in turn contributed to the expansion of the empire built on imperial buildings. This vast diaspora of European culture had a direct impact on local cultures under colonial rule. Factors such as the direct influence of colonialism, the deprivation of history and the neglect of local cultures are some of the factors that are central to postcolonialism in understanding the Eurocentric approach.

Postcolonial theorists have tried to avoid Eurocentrism in two ways and criticize certain ideas about world history and the existence of other peoples in history. At first they tried to avoid talking about the history of Europe, considering it the center of world history. Moreover, the European powers collectively possessed power and knowledge that led them to believe that Western culture was superior to other cultures. There are some areas where postcolonial theorists challenge Eurocentric understandings of history. The rejection of European racism was discussed by some theorists who tried to establish the idea of the universal man, that is, all people are equal. Thus, postcolonialism brought a new perspective on world history and partially corrected some of the "misconceptions" about the European perspective for the rest of the world.

**Key words:** *post-colonialism, Europe, imperialism,colony, East, colonialism, Orientalism*

Redaksiya heyətinin üzvü t.ü.f.d. Rüstəmova Aybəniz Vilayət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.